Əbədiləşən həyat salnaməsi



Fəxri xiyaban… Zərifə xanımın qəbirüstü abidəsi dayanır.

Ulu Öndər Heydər Əliyev Ömər Eldarov tərəfindən işlənmiş bu sənət əsərinin eskizlərini görəndə, demişdir: – ”Sağ ol Ömər, sən Zərifə xanıma ikinci ömür vermisən.”[1]

Zərifə dühası, zərif həyatın əbədi nuru bu qəbirüstü abidəni öz ziyası ilə əbədiləşdirmişdir. Azərbaycanın müasir tarixində və dünya oftalmologiya elmi sahəsində parlaq, silinməz izlər qoymuş unudulmaz insan, böyük alim, akademik Zərifə xanım Əliyeva aprel ayında dünyaya gəldiyi kimi, bu ayda da, dünyasını dəyişib. Lakin cahana həyat bəxş edən Günəş bir damla suda əks olunduğu kimi, Zərifə xanım Əliyevanın da uca adı, təkrarsız şəxsiyyəti, ali insanlığı ondan yadigar qalan əsərlərində daima yaşayır.

Bir insanın, qadına, anaya, ömür-gün yoldaşına, alim və vətəndaşa xas olan bütün mükəmməl cizgiləri özündə cəmləməsi, yalnız, Tanrı vergisi ola bilər.

Əllərinin şəfası, dərin savadı, xüsusilə də, incə qəlbi, şəfqət, sevgi dolu rəftarı ilə minlərlə gözə nur verən Zərifə xanım Əliyeva, sözün əsl mənasında, Tanrı vergisinə sahib insan idi.

Zərifə xanım 100 il əvvəl, Azərbaycan dünyasının naxışı sayılan Naxçıvanın Şahtaxtı kəndində dünyaya göz açanda, kimsənin ağlına gəlməzdi ki, o, dünya tibb elmində yeni səhifə açan görkəmli həkim, akademik olacaqdır.

Azərbaycandan doğan Günəş, qadın oftalmoloqlar arasında ilk dəfə akademik M. İ. Averbax adına Tibb Elmləri Akademiyasının mükafatına layiq görüləcək və ən əsası isə Azərbaycan tarixinin möhtəşəm səhifələrinin yazılmasında xüsusi rol oynayacaqdı.

Orta məktəb illərindən başlayaraq özünün sonsuz çalışqanlığı və məsuliyyətli ilə seçilən Zərifə Əliyeva həm müəllimlərinin, həm də məktəb yoldaşlarının dərin rəğbətini qazanmışdı. Ailəsindəki mehriban münasibət, bir-birinə qayğı hissi özünü sinifdə də gözəl təcəssüm etdirirdi.

Əziz Əliyev ocağında dünyaya göz açan Zərifə xanım tələbəlik illərində də, özünün qeyri-adi istedadı, yüksək intellekti və qabiliyyəti ilə seçilib. Tələbə yoldaşları onu çox sadə, nəzakətli, gülərüzlü, qayğıkeş bir insan kimi dərin hörmətlə xatırlayıblar.

Bu xislət onda böyüyərək formalaşdığı ailədən və mühitdən yaranmışdı. Ot kökü üstə bitər deyib atalar. Dünyaya göz açdığı ailə görkəmli alim və ictimai-siyasi xadim Əziz Əliyev ailəsi ilə birlikdə, İrəvanda yaşayan əksər azərbaycanlılar kimi, qaçqınlıq taleyilə üzləşərək Naxçıvana köçmüşdü. Hamının rəğbət və hörmət bəslədiyi Əliyevlər ailəsi bütün qohum-əqrəbanın, dost-

[1] https://zarifa-aliyeva.az/Immortalized_name.php?name=a

tanışın ümid yeri idi.

Çağdaş müstəqil Azərbaycan dövlətinin memarı, Azərbaycan xalqının xilaskarı və Ümummilli lideri mövqeyinə yüksəlmiş Heydər Əliyevin bu uğurlu həyat və fəaliyyət yolunda, heç şübhəsiz, onun fədakar həyat yoldaşı, sadiq sirdaşı olan Zərifə xanım Əliyevanın da özünəməxsus rolu vardır.

Zaman keçəcək, qərinələr, əsrlər ötəcək, Zərifə xanım və onun kimi elm fədailəri tarixdə daima yaşayacaqdır. Zərifə Əliyevanın əbədiləşən həyat dastanı bu gün də Azərbaycanın iqtisadi - siyasi həyatında, quruculuq işlərində, davam etməkdədir. Bu gün tibb sahəsində və digər sahələrdə yüzlərlə idarə müəssisə, Zərifə Əliyevanın adına əbədiləşdirilmişdir.

# Əbədiləşən adı

Heykəltaraş Ömər Eldarovun akademik Zərifə Əliyevaya həsr etdiyi “Elegiya”

abidəsi 1997.04.15

Naxçıvandakı səhiyyə ocağına adı verilmişdir

Binəqədi rayoninda Respublika Oftalmologiya 1998

Binəqədi rayonunda Respublika Oftalmologiya Mərkəzinin yaxınlığındakı

ərazidə salınmış yeni bulvar 1999

- Bakının Binəqədi rayonu ərazisində Zərifə Əliyeva adına park 2000.04.28
- Bakıda EA-nın Qarayev adına Fiziologiya İnstitutunun qarşısında akademik
- Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutuna adı verilmişdir. 2002.01.21
- Zərifə Əliyevanın barelyefİ 2003.04.28
- Ukraynada adını daşıyan küçədə akademik Zərifə Əliyevanın abidəsi 2004.06.04
- Bərdə şəhərində adını daşıyan orta məktəb açılmışdır. 2004.09.11
- Estoniyada akademik Zərifə Əliyeva adına Şərq Mədəniyyəti Xalq Universiteti 2004.12.15
- Yardımlı qəsəbəsində akademik Zərifə Əliyeva adına Körpələr evi-uşaq bağçası 2005.09.09
- Bakıda akademik Zərifə Əliyeva adına körpələr evi-uşaq bağçası 2005.09.09
- Ucarda akademik Zərifə Əliyeva adına Qazıqumlaq kənd xəstəxanası 2006.06.29
- Qəbələ şəhərində Zərifə Əliyeva adına istirahət parkı 2007.03.02
- Xaçmazda akademik Zərifə Əliyeva adına tam orta məktəb 2007.09.17
- Ankarada akademik Zərifə Əliyeva adına park 2007.09.17
- “Akademik Zərifə Əliyeva” adına gəmi-bərə 2008.01.08
- Azərbaycanda Zərifə Əliyevanın Poçt markası 2003
- Bakının Yasamal rayonunda akademik Zərifə Əliyevanın adına lisey 2008.28.04.
- Bakının Xətai rayonunda akademik Zərifə Əliyeva adına uşaq bağçası 2008.09.25
- Ukraynanın İrpen rayon mərkəzində (Kiyev vilayəti) “Zərifə Əliyeva adına
- dostluq parkı” 2011.05.30
- Ukraynanın İrpen şəhərində Şəhər Şurasının, Ukraynada Azərbaycanlı Gənclər
- İttifaqının təşəbbüsü və Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin
- dəstəyi ilə Zərifə Əliyeva adına Dostluq Parkında Uşaq yaradıcılıq və istirahət

- klubunun 2012.0808
- Naxçıvanda akademik Zərifə Əliyeva adına poliklinika 2012.05.30
- Estoniyanın paytaxtı Tallin şəhərində adı verilmiş uşaq bağçasının açılışı 2013
- olmuşdur.
- 90 illik yubileyinə həsr olunmuş suvenir poçt bloku dövriyyəyə buraxılmışdır. 2013
- Xətai rayonunda akademik Zərifə Əliyeva adına uşaq bağçası üçün tikilmiş yeni
- binanın açılışı 2013
- 7 fevral
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev akademik Zərifə
- Əliyevanın 90 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam 2013 02.07
- Ukraynanın paytaxtı Kiyev şəhərində akademik Zərifə Əliyeva adına Elmi-Tibbi
- Kitabxanası 20140.4.044
- Ukraynanın İrpen şəhərində xarici dil təmayüllü 12 nömrəli I-III dərəcəli şəhər
- ümumtəhsil məktəbinə (linqvistika məktəbi) 2015
- Gəncədə Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin filialı 2016
- Ukraynanın Lvov şəhərində 1 saylı şəhər klinik xəstəxanasının poliklinikası 2017
- Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin dəmiryolu Səyyar klinikası 20018
- Akademik Zərifə Əliyevanın anadan olmasının 99 illiyinə həsr olunmuşOftalmologiyanın aktual məsələləri" mövzusunda beynəlxalq elmi-praktiki konfrans 22.04.28
- Milli Kitabxanada "Zərifə Əliyeva. Biblioqrafiya" kitabının və "Zərifə Əliyeva – 95" adlı elektron məlumat bazası -təqdimat 2018. 05.02
- Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Şəki filialı 2019
- Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin yeni binasının açılışı 2022.05.21
- 28 aprel "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə "Ro-Pax" tipli "Zərifə Əliyeva" gəmi bərəsi 2022.05.28
- Akademik Zərifə Əliyevanın anadan olmasının 99 illiyinə həsr olunmuş "Oftalmologiyanın aktual məsələləri" mövzusunda beynəlxalq elmi-praktiki konfrans 2022.04.28
    - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncamı 2022.11.03